

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 26 (23.913)

*9 fevral 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib. "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

Məlumat verilib ki, enerji sistemində ilk dəfə məhz ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılan bu yarımstansiyada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılıb. 120 MVAr gücündə idarəolunan şuntlayıcı reaktor 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək, xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.

Sistem əhəmiyyətli 330/220/110/10 kilovoltluq "Yaşma" yarımstansiyasının əsaslı yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olunub. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısının alınmasını, mühafizələrin cəld, selektiv, etibarlı işini və operativ əməliyyatların çevikliyini təmin edəcək.



## Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi nailiyyətdir

***Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümü tamam olur. Naxçıvanın muxtariyyət məsələsinin siyasi gündəmdə yerini almasının əsas səbəbi 1920-ci il dekabrın 2-də Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi-siyasi saziş olub. Həmin sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salındı. Bununla da Naxçıvanın muxtariyyət məsələsi gündəliyə gəldi.***

Sovet Rusiyası Ermənistanı sovetləşdirmək üçün Azərbaycanın bir sıra torpaqlarını Azərbaycanın xəbəri və iştirakı olmadan Ermənistana verirdi. Bunun əsası hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdu. Sovet Rusiyasının təzyiqi ilə İrəvan şəhəri paytaxt kimi 1918-ci il mayın 29-da Ermənistana verilmişdi. Bundan sonra Ermənistanın ərazi iddiaları artmışdı. Onlar açıq-aşkar bildirirdilər ki, Ermənistan bu kiçik ərazidə yaşaya bilməz, ona yeni torpaqlar verilməlidir. Ermənistan SSR himayədarlarının köməyi ilə 1918-1920-ci illərdə qonşu Azərbaycan ərazilərini Ermənistana birləşdirmək üçün açıq silahlı mübarizəyə başladı. Azərbaycan Xalq Cümhuriyyəti naxçıvanlılara lazımi köməklik göstərə bilmirdi. Siyasi və diplomatik sahədə Naxçıvanı müdafiə etsə də, hərbi və maddi yardım edə bilmirdi. Bununla belə naxçıvanlılar öz qüvvələrinə arxalanaraq ermənilərə qarşı qətiyyətli mübarizə aparırdılar. Bu işdə onlara Naxçıvan Milli Komitəsi və Araz-Türk Cümhuriyyəti rəhbərlik edirdi. Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi, "...igid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."

Ermənilərin Naxçıvan və Şərur iddiaları bitib-tükənmədiyindən Naxçıvan əhalisi cidd-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışır, onunla birləşmək üçün müxtəlif yol və vasitələr axtarırdı. Bütün bunlar isə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən razılıqla qəbul olunur, müəyyən tədbirlər görülürdü.

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvana gəlmiş, onlar öz fəaliyyətində Naxçıvanı Ermənistana vermək üçün çalışırdılar. Azərbaycan Xalq Cümhuriyyəti bunun qarşısını almaq üçün Səməd bəy Cəmillinskinin başçılığı ilə Naxçıvanda general-qubernatorluq yaratdı. İngilislərdən sonra ABŞ nümayəndələri Naxçıvana gəldilər. Onların məqsədlərini bilən qəhrəman naxçıvanlılar da buna imkan vermədilər. Amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhdlər etdi. Lakin Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Naxçıvan, Ordubad əraziləri 1920-ci ilin ortalarına doğru tamamilə ermənilərdən təmizləndi.

1920-ci ilin iyulunda XI Ordu qüvvələri Naxçıvana göndərildi və hakimiyyət bolşeviklərin ixtiyarına keçdi. Bu zaman türk qoşun hissələri də Veysəl Ünüvarın başçılığı ilə Naxçıvanda yerləşmişdi. Beləliklə, bölgə əhalisinin inadlı mübarizəsi nəticəsində erməni silahlı quldur dəstələrinə layiqli cavab verildi və ərazi qorunub saxlanıldı. Sonradan – 1923-cü ildə bu məsələdən bəhs edən Ermənistanın birinci baş naziri O.Kaçaznuni etiraf edirdi ki, "müsəlman Naxçıvanı və Şərurunda..., müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik (işğal edə bilmədik – İ.H.), silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. ...Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi, hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik".

Sovet Rusiyasının Milli İşlər komissarı İ.Stalin Rusiyanın maraqlarından çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O, 1920-ci il noyabrın 4-də Bakıda keçirilən bir müşavirədəki çıxışında deyirdi: "Əgər bilmək istəyirsinizsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar". İ.Stalinin bu fikri, əslində, Naxçıvanı Ermənistana vermək istiqamətinə yönəlmişdi, 24 gündən sonra Ermənistan sovetləşdirildi. Rusiyanın təzyiqi ilə noyabrın 30-da Nəriman Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşri ortaya çıxdı. Guya belə çıxırdı ki, N.Nərimanov Zəngəzur və Naxçıvanın Ermənistana verilməsinə tərəfdardır.

1920-ci il dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Vəziyyətin bu cür kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. B.Şahtaxtinski əhali ilə görüşlərində vəziyyəti izah etdi, çıxış yollarını göstərdi. O, hələ 1920-ci ilin əvvəllərindən başlayaraq V.Leninə göndərdiyi məktub və teleqramlarda Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini əsaslandırırdı. 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumda əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi. Referendumun nəticəsi, əslində, problemin həllində mühüm rol oynadı və Sovet Rusiyası bunu nəzərə almaya bilməzdi. B.Şahtaxtinskinin 1921-ci il martın 1-də Leninə göndərdiyi məktub və arayışda Cənubi Qafqazla, eləcə də Naxçıvanla bağlı mühüm məsələlər qaldırılırdı. Artıq Moskvada Sovet Rusiyası ilə Türkiyə Böyük Millət Məclisi nümayəndələri arasında danışıqlar gedirdi. Bu danışıqlarda Naxçıvan məsələsi də müzakirə olunurdu. Müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması, ona muxtariyyət statusu verilməsi və üçüncü dövlətə verilməməsi məsələləri öz əksini tapdı. RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da bağlanmış müqavilədə bunlar təsbit edildi. Moskva müqaviləsi, eyni zamanda Rusiya və Türkiyə arasında mövcud olan problemləri də həll etdi. Lakin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq mühüm bir iş kimi qarşıda dururdu. Bunun üçün yeni bir konfrans çağırmaq və orada bu məsələləri həll etmək lazım idi. Dövlətlər arasındakı razılığa əsasən belə bir konfrans Qars şəhərində keçirildi. Qars konfransı sentyabrın 26-dan oktyabrın 13-dək baş tutdu və Qars müqaviləsinin bağlanması ilə yekunlaşdı. Konfransda Azərbaycanı xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski və Naxçıvan SSR-in XKS-nin göndərdiyi Tağı Səfiyev təmsil edirdilər. Konfransda Türkiyə nümayəndələri çalışırdılar ki, hər respublika ilə ayrı-ayrılıqda müqavilə bağlanılsın. Lakin Rusiya nümayəndəsi Y.Qanetski buna imkan vermədi və respublikalar ilə vahid müqavilə bağlandı. Rusiyanın iştirakı ilə 20 maddə və 3 əlavədən ibarət olan Qars müqaviləsi Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalandı.

Müqavilənin beşinci maddəsi bilavasitə Naxçıvanla bağlı idi. Bu maddəyə görə, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirdilər". Bu maddəyə görə, Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə bu himayəni qəbul etdiyini təsdiq edirdi. Müqavilənin "Naxçıvan ərazisi" adlanan III əlavəsində onun sərhədləri dəqiq müəyyən edilirdi: Sərhəd Urmiya kəndindən düz xətt ilə Arazdəyən stansiyasına, oradan Daşburun dağına qədər uzanır və Moskva müqaviləsi ilə müəyyən edilmiş sərhədlər əsas götürülərək keçmiş Naxçıvan qəzasının Şərq inzibati sərhədlərində qurtarırdı. Moskva müqaviləsi ilə müəyyən edilmiş ərazi Rusiyanın təhriki ilə Qars müqaviləsində bir qədər azaldılmışdı. Bununla belə, Qars müqaviləsinin nəticələrindən narazı qalan ermənilər yenə də öz qonşularına, ilk növbədə, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər.

Müqavilənin Cənubi Qafqaz respublikaları üçün əhəmiyyətli cəhətləri vardır. Bu respublikaların Türkiyə ilə ərazi məsələləri həll edildi, onunla mehriban qonşuluq münasibətlərinin əsası qoyuldu. Ermənistan Naxçıvanı Azərbaycan ərazisi kimi qəbul etdi.

Qars müqaviləsinin ən əhəmiyyətli tərəflərindən biri onun müddətsiz imzalanması idi. Artıq bu müqavilənin birəsrlik tarixi vardır. Qars müqaviləsi ilə Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir – bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev çox böyük uzaqgörənliklə Naxçıvanın muxtariyyət əldə etməsinə və bu sahədə Moskva və Qars müqavilələrinə böyük əhəmiyyət verərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün, xüsusən Moskva müqaviləsinin və Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***



*Ardı 2-ci səhifədə*

Qeyd etmək lazımdır ki, əgər Naxçıvanda keçirilən 1921-ci il referendumu olmasaydı, Naxçıvanın muxtariyyət məsələsi gündəlikdən çıxarılacaq, Moskva və Qars müqavilələrində öz əksini tapa bilməyəcəkdi. Qars müqaviləsinin əhəmiyyətindən bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında 2021-ci il fevralın 8-də Sərəncam imzalamışdır. Sərəncamda deyilir: *"1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir... Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində bu müqavilə Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir".*

Beləliklə, keçirilmiş ümumxalq səsverməsi və beynəlxalq müqavilələr bölgənin gələcək taleyini müəyyənləşdirdi. 1924-cü il fevralın 9-da məhz bu sənədlər əsasında Naxçıvan Muxtar Respublikası yaradıldı. Naxçıvan muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Konstitusiyanın ikinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratlığında olmaqla onun tərkib hissəsidir". Naxçıvan MSSR-in sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi göstərilmişdir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: *"Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".*

Naxçıvan Muxtar Respublikasının 1998-ci il yeni Konstitusiyasında Naxçıvan muxtar dövlət kimi ifadə olunmuş və onun Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilmişdir.

Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuşdur. Həmin yubiley tədbirlərində ulu öndər Heydər Əliyev və ölkə Prezidenti cənab İlham Əliyev iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir. Muxtariyyət illərində Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvana səfərləri, Zəngəzur dəhlizinin açılması istiqamətində həyata keçirdiyi qətiyyətli tədbirlər, muxtar respublikaya göstərdiyi diqqət və qayğı bölgənin dayanıqlı və kompleks inkişafına, ən öncül regiona çevrilməsinə səbəb olmuşdur.

Burada Ali Məclis Sədrinin yüksək idarəetmə bacarığı, məqsədyönlü fəaliyyəti də qeyd edilməlidir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası hərtərəfli və dinamik inkişafa nail olmuş, 2017 və 2018-ci illərdə mühüm iqtisadi göstəricilərinə görə Azərbaycan Respublikasının regionları arasında liderliyi qazanmışdır. Naxçıvan tarixin heç bir mərhələsində indiki qədər abad və yüksək inkişafa nail olmamışdır. Naxçıvan aqrar bölgədən sənaye-aqrar regionuna çevrilmişdir. Muxtar respublika bütün istiqamətlər üzrə rekordçu bölgə səviyyəsinə çatmış, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunmuşdur. 2021-ci ildə ümumi daxili məhsulun həcmi 3 milyarddan çox olmuşdur ki, bu da 2020-ci illə müqayisədə 2,4 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizindən çoxu istehsalın payına düşür. 1 milyard 69 milyon manatlıq sənaye məhsulu, 573 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal edilmiş, 355 müxtəlif təyinatlı obyekt istifadəyə verilmişdir. Bütün sahələrdə artım faizlə yox, dəfələrlə özünü göstərmişdir. Ali Məclisin Sədri demişdir: ***"Muxtariyyət statusu çoxşaxəli inkişafla yanaşı, həm də Naxçıvanda böyük müdafiə potensialının formalaşdırılmasına əsas vermişdir. Bir sözlə, Naxçıvan Muxtar Respublikası bütün sahələrdə uğurlu yol keçmişdir. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda real həyatda, insanların rahat yaşayışında, sabitlikdə, yüksək rifahda, yaşayış məntəqələrimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında, ordu quruculuğunda görürük".***

Ötən il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı burada görülmüş işlərdən razı qaldığını bildirərək demişdir: ***"Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir".***

*Bütövlükdə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində ölkəmizin daha böyük inkişafına doğru inamla və qətiyyətlə irəliləyir, abad və çiçəklənən bir diyara çevrilir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Naxçıvanın muxtariyyət tarixinə həsr olunmuş interaktiv dərs

*Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümünə həsr edilmiş növbəti interaktiv dərs olub. AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun tədris etdiyi "Naxçıvanın muxtariyyəti: dünən və bu gün" mövzusundakı dərsə muxtar respublikanın 200-ə yaxın ümumtəhsil məktəbinin şagirdləri qoşulub.*



Dərsdə ötən əsrin əvvəllərində Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda hökm sürən gərgin ictimai-siyasi vəziyyətdən, muxtariyyət ərəfəsində Naxçıvan diyarında baş verən hadisələrdən bəhs edilib, erməni quldurlarının törətdikləri qırğınlar nəticəsində əhalinin sayının iki dəfə azalması, diyarın təsərrüfat həyatında baş verən ciddi tənəzzül və mühüm tarixi faktlar diqqətə çatdırılıb.

Yaşar Rəhimov Naxçıvanın muxtariyyət statusu qazanmasında və daşnak təcavüzünə qarşı əhalinin təşkilatlanmasında Behbud ağa Şahtaxtinskinin oynadığı mühüm roldan söz açıb. Vurğulanıb ki, onun təşəbbüsü ilə keçirilən referendumda bölgə əhalisinin 90 faizdən çoxunun Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verməsi, bütövlükdə, ölkəmizə qarşı hazırlanmış məkrli planlara sarsıdıcı zərbə olmuş, muxtariyyət statusunun qazanılmasında Moskva və Qars müqavilələri mühüm diplomatik, tarixi əhəmiyyət kəsb etmişdir.

XX əsrin 90-cı illərində muxtar respublikada mövcud vəziyyət, mənfur ermənilərin hücumları haqqında məlumat verən Yaşar Rəhimov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə təmin edilmişdir. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikada həyata keçirilən işlərlə bağlı fikirlərindən sitatlar gətirib. Bildirilib ki, ötən dövr ərzində muxtar respublikada həyata keçirilən irimiqyaslı quruculuq işləri, əldə olunan çoxsaylı nailiyyətlər, xarici əlaqələrin genişləndirilməsi, həyatın bütün sahələrində qeydə alınan inkişaf ulu öndərin siyasi xəttinin bu gün də muxtar respublikada uğurla davam etdirildiyinin sübutudur. Bu gün inkişaf dövrünü yaşayan Naxçıvan muxtariyyətinin 98-ci ildönümünü yüksək qürur və fəxrlə qeyd edir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*"Sənaye ili" – 2022*

## Sahibkarlarla görüş iqtisadi sahədə görüləcək işlərin istiqamətini, inkişaf strategiyasını müəyyənləşdirir

***"Dövlətin məqsədi aydındır: sahibkarlıq inkişaf etdirilməli, yeni iş yerləri açılmalı və yerli istehsalın həcmi artırılmalıdır. Hər bir sahibkar da ölkəmizdəki sabitlikdən, özəl sektora göstərilən dövlət qayğısından bəhrələnərək iqtisadi inkişafa öz töhfəsini verməlidir".***

Fevralın 4-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla keçirilən görüşdə səsləndirdiyi bu fikirlər muxtar respublikada sahibkarlığın inkişafı üçün dövlətin həyata keçirdiyi siyasətin ana xəttini təşkil edir. Bu tezis, eyni zamanda regionda sahibkarlığın stimullaşdırılması, sosial-iqtisadi inkişafın təmin edilməsində özəl sektorun hansı rol oynadığını ortaya qoyur.

Ənənəvi olaraq hər il keçirilən belə görüşlərdə muxtar respublikanın əvvəlki ildə əldə etdiyi sosial-iqtisadi göstəricilər bir daha yada salınır, sahibkarlıq qurumlarının fəaliyyət istiqamətləri təhlil olunur, yeni iqtisadi layihələrin perspektivləri və görüləcək işlər müzakirə edilir. Budəfəki görüşdə səsləndirilən rəqəmlər də bir daha onu təsdiq edir ki, dünya siyasi-iqtisadi sistemindəki məlum "çalxalanmalar" bir çox ölkə və regionların inkişafına mənfi təsir göstərsə də, muxtar respublikada qazanılan iqtisadi uğurlar kifayət qədərdir və bu nəticələrin əldə olunmasında dövlətin açıq iqtisadi siyasətinin olması böyük rol oynayır. Belə nəticələrə istinad etsək, görərik ki, sosial-iqtisadi inkişafın göstəricisi sayılan ümumi daxili məhsul istehsalı ötən il ondan əvvəlki illə nisbətdə 2,4 faiz artaraq 3 milyard 16 milyon 315 min manat təşkil edib. Bu məhsulun, təxminən, üçdə bir hissəsinə yaxınını sənaye məhsullarının istehsalı təşkil edib – 27 faiz. Sənaye məhsulu istehsalında artımı əvvəlki illə müqayisədə 1,7 faiz olub.

Kiçik sahibkarlığın baza potensialı hesab olunan ailə təsərrüfatlarının inkişaf etdirilməsi artıq muxtar respublikada həyata keçirilən ən mühüm iqtisadi tədbirlərdəndir. Təsadüfi deyil ki, hər il sahibkarlarla keçirilən görüşlərə ailə təsərrüfatçılarının da dəvət edilməsi, onların fəaliyyətləri üçün elə yerindəcə lazımi tapşırıqların verilməsi, maliyyə yardımlarının göstərilməsi bu cür özünüməşğulluq sahələrinin ildən-ilə daha da inkişaf etməsinə şərait yaradır. Tədbirdə qeyd olundu ki, kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən 76 ailə təsərrüfatına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1 milyon 221 min manat dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 5000 ədəd 27 çeşiddə tara ilə təmin edilib. Həmçinin müəssisələrin və məhsulların təbliği, beynəlxalq tədbirlərdə tanıdılması məqsədilə 39 ixrac potensiallı müəssisənin və ailə təsərrüfatlarının məhsullarını əks etdirən "İxrac kataloqu" hazırlanaraq çap olunub.

Görüşdə ***"Sahibkarlığın inkişafından danışarkən ailə təsərrüfatları modeli, xüsusilə qeyd olunmalıdır"***, – deyən Ali Məclisin Sədri bildirdi ki, bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı özünüməşğulluğu təmin etməklə yanaşı, həm də kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır. Eyni zamanda özünüməşğulluq tədbirləri sırasında əhalinin aztəminatlı təbəqəsi aktiv əməyə cəlb edilir, dövlət tərəfindən bu kateqoriyadan olan ailələrə dəstək göstərilir. Qeyd olundu ki, muxtar respublikada sahibkarların maliyyə resurslarına çıxış imkanları da sadələşdirilib, aid qurumlar və banklar tərəfindən səmərəli icra mexanizmi müəyyənləşdirilib. 2021-ci ildə muxtar respublikada sahibkarlara 38 milyon manatdan artıq kredit verilib, 142 yeni istehsal və xidmət sahəsi yaradılıb.

Sahibkarlarla keçirilən tədbirdə əhəmiyyətli məsələlərdən biri də muxtar respublikada sənaye istehsalının inkişafı ilə bağlı deyilən fikirlər idi. Muxtar respublika rəhbəri qeyd etdi ki, istehsal edilən sənaye məhsulunun 93 faizi özəl bölmənin payına düşür. Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il muxtar respublikada "Sənaye ili" elan edilmiş, bununla bağlı "Tədbirlər Planı" təsdiq olunmuşdur.

"Sənaye ili"ndə muxtar respublikanın aidiyyəti dövlət qurumları və sahibkarlıq müəssisələri qarşısında mühüm vəzifələr durduğunu bildirən Ali Məclisin Sədri bu istiqamətdə görüləcək işlərlə bağlı tapşırıqlar da verdi: ***"Muxtar respublikada daxili bazar təhlil edilməli, İqtisadiyyat Nazirliyi tələbata uyğun yeni istehsal sahələrinin yaradılmasını dəstəkləməli, biznes-planlar tərtib olunarkən rentabellik amili əsas götürülməlidir. Nazirlik 2022-ci ildə sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsini, xüsusilə yerli xammala və innovativ layihələrə əsaslanan müəssisələrin qurulmasını, emal sənayesi müəssisələrinin yaradılmasını davam etdirməli, Şərur Sənaye Məhəlləsində işlər başa çatdırılmalıdır".***

Bununla yanaşı, muxtar respublikada istehsal olunan məhsulların çeşidinin, keyfiyyətinin və ixrac imkanlarının artırılması, tələbatı idxal hesabına ödənilən məhsulların yerli istehsalının təşviq olunması, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi və daxili bazarın qorunması barədə verilən tapşırıqlar, ümumilikdə, 2022-ci ildə iqtisadi sahədə görüləcək işlərin istiqamətini, iqtisadi inkişaf strategiyasını müəyyənləşdirir.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvan şirkətləri ixracı genişləndirir




Sürətli iqtisadi inkişaf yolunda uğurla irəliləyən ölkəmizdə sahibkarlıq xüsusi diqqət yetirilən sahələrdən biridir. Dünyaya inteqrasiya olunduğumuz bir dövrdə artıq sahibkarlar daxili bazarla kifayətlənməyərək həm də rəqabətədavamlı, ixracyönümlü məhsul istehsalına da ciddi fikir verirlər. Bu cəhətdən xarici ölkələrdə təşkil olunan beynəlxalq tədbirlər mühüm əhəmiyyət daşıyır. Artıq neçə ildir ki, muxtar respublika sahibkarları da belə tədbirlərə qatılır, regionumuzda istehsal edilən məhsulları nümayiş etdirir, bununla xarici ölkələrdə də alıcı qüvvəsi toplayırlar.

Rusiya Federasiyasının paytaxtı Moskvada "Prodexpo 2022" beynəlxalq sərgisi keçirilir. 11 fevral tarixədək davam edəcək sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirilir.

Qida, içki və onların xammalının istehsalı üzrə hər il təşkil olunan sərgidə iştirak edən Naxçıvan şirkətləri də müxtəlif çeşidli məhsullarını sərgiləmək imkanı əldə ediblər. Sərgidə "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 94 çeşiddə vafli məhsulları, 40 çeşiddə qazlı və qazsız "Badamlı", "Sirab" mineral suları olmaqla cəmi 134 çeşiddə məhsul nümayiş etdirilir.

Sərgilər çərçivəsində naxçıvanlı sahibkarlar öz məhsullarını nümayiş etdirməklə yanaşı, xarici iş adamları ilə yeni əməkdaşlıq əlaqələri qurmaq, məhsulların ixracına dair müzakirələr aparmaq imkanı da əldə edəcəklər.

Qeyd edək ki, 13-17 fevral tarixlərdə növbəti "Gulfood 2022" sərgisi keçiriləcəkdir. Sərgidə "Ləzzət Qida Sənaye", "Badamlı Mineral Sular", "Savalan-S" Məhdud Məsuliyyətli və Babək "Sirab" Açıq Səhmdar cəmiyyətlərinin nümayəndələri təmsil olunacaq. Belə sərgilər istehsala və ixraca mühüm töhfələr verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Müasirləşən kəndlərimiz*

# Şərurun müasirlik xəritəsini tamamlayan yaşayış məntəqəsi: Çərçiboğan *və ya soyuq bir qış gününün isti təəssüratları*

***Qədim Naxçıvanın, neçə illərdir ki, bərqərar olmuş qaynar həyat ritminin, sabitlik, güclü iqtisadiyyat və inkişaf strategiyasının tərkib hissəsinə çevrilmiş quruculuq, abadlıq, yeniləşmə tədbirləri 2021-ci ildə də davam etdirildi. Muxtar respublikanın bütün rayonlarının ayrı-ayrı yaşayış məntəqələrində müxtəlif istiqamətli obyektlər inşa olundu, yollar salındı, körpülər tikildi, insan amilinə xidmət edəcək digər məqsədyönlü quruculuq tədbirləri həyata keçirildi. Açılış mərasimləri el bayramına çevrilən həmin ünvanların sakinləri bir daha arxalarında güclü dövlətin dayandığını gördülər, güclü dövlətin vətəndaşı olmaq qürurunu yaşadılar...***

Şərur rayonunun Çərçiboğan kəndində həyata keçirilmiş kompleks quruculuq tədbirləri başa çatdırıldıqdan sonra – yanvar ayının 14-də istifadəyə verilən obyektlər barədə qəzetimizdə gedən yazı və Naxçıvan televiziyasında yayımlanan veriliş ilə bu yaşayış məntəqəsinin müasir mənzərəsini hamı görüb. Xatırlatmaq istərdim ki, Çərçiboğan bu rayonda

Məktəb



Dünən





Bu gün

müasirliyə qovuşmuş sonuncu kənddir. Biz də öz ənənəmizə sadiq qalaraq Çərçiboğana getmək, kənd sakinlərinin sevincinə şərik olmaq, göstərilən qayğıya onların münasibətini öyrənmək üçün üz tutduq həmin yaşayış məntəqəsinə. Yeri gəlmişkən, oxucular üçün bu kəndin adının etimologiyası ilə bağlı bəzi məlumatların maraqlı olacağı qənaətindəyəm.

Bununla bağlı el arasında yayılmış bir neçə versiya var. Yaşlı kənd sakinlərinin də bəziləri bu versiyalarla tanışdır. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun fikrincə, “Çərçiboğan” adının “çərçi” komponenti qədim türk dillərində “qoşun, ordu” mənasında işlənən çəri sözünün fonetik variantıdır. Bu söz “Kitabi-Dədə Qorqud” dastanında da eyni mənada işlənir: “Alp Uruz çadırların açdırdı, cəbhəxanasın yüklətdi: Qaragünə çəribaşı oldu”.

Adil Bağırova görə, dilimizdə “çəri” sözünün “qorçü” və “qurçi” variantları da mövcuddur. Qurçi “qoşun, ordu” qurçibaşı isə “qurçilərin rəisi” deməkdir. 1387-ci ildə Əlincəqalanı müdafiə edənlərə və 1501-ci ildə Şərur düzündə Ağqoyunlu hökmdarı Əlvənd Mirzəyə qarşı vuruşan Şah İsmayıl Xətainin döyüşçülərinə də “qurçi” deyilirmiş. Səfəvilər dövründə qurçibaşı hərbi nazir səlahiyyətləri daşıyırdı və qurçibaşların əksəriyyəti qızılbaş Əfşar tayfasından çıxmışdı.

Alim bu fikirlərə əsaslanaraq belə qənaətə gəlir ki, Çərçiboğan adının mənşəyi qədim türk Əfşar tayfasına məxsus qoşun adı ilə bağlı yaranmışdır. Yəni Şah İsmayıl Xətainin qoşununun bir hissəsi bu ərazidə yerləşdiyinə görə buraya “qoşun tutan, qoşun boğan”, “qüdrətli qoşun yeri” mənası bildirən Çərçiboğan adı verilmişdir...

...Artıq Şərur rayon mərkəzindəyik. Onu qeyd edim ki, muxtar respublikada yol infrastrukturunun yenilənməsi istiqamətində həyata keçirilən tədbirlərin bu bölgəmizdə də uğurla reallaşdırılmasını hər addımda görmək olar. Elə rayon mərkəzindən bizi Çərçiboğana aparan yol da müasir standartlar səviyyəsindədir. Sürücü Natiq İsmayılov deyir ki, işimlə əlaqədar hər gün rayonun bir neçə kəndinə getməli oluram. Bütün yollarımız yenilənib, sürücülərin və sərnişinlərin rahatlığı təmin edilib, bir o qədər yanacaq işlətməyə də ehtiyac qalmayıb. Bu qayğıdan Çərçiboğan kəndinə, yaşayış məntəqəsinin kəndarası yollarına da pay düşüb. Statistik rəqəmlərə müraciət edək. Quruculuq tədbirləri çərçivəsində ümumi uzunluğu 15,8 kilometr olan yol asfaltlanıb. 5,8 kilometr kənddaxili yola qum-çınqıl qatı verilib. Təmir-bərpa çərçivəsində 3,4 kilometr beton su kanalı çəkilib, 53 metal borudan, 13 beton su keçidindən istifadə edilib.

Budur, kəndə çəkilmiş yeni yol bizi Çərçiboğana çatdırır. Yeni salınmış idman meydançasının qarşısında bizi kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Ceyhun Əsgərov qarşılayır. Doğulub boya-başa çatdığı kəndin bu gününün gözəlliyindən qürur duyan icra nümayəndəsinin yaşadığı hissləri başa düşmək çətin deyil. Neçə illərdir ki, bu günü gözləyiblər, rayonun böyüklüyü, ilk olaraq ucqar dağ və sərhəd kəndlərində quruculuq tədbirlərinin həyata keçirildiyini daha vacib hesab ediblər. Artıq onların da arzuları reallaşıb.

Ceyhun Əsgərov əli ilə yeni tikililəri göstərərək onlar haqqında məlumat verir. 3 mərtəbədən ibarət olan 654 şagird yerlik məktəb ilk daxil olduğumuz ünvandır. Hazırda 410 şagirdin oxuduğu təhsil müəssisəsinin direktoru Elnarə Əliyeva müəllim və şagirdlərin istifadəsinə verilmiş məktəb binasını muxtar respublikada təhsilin inkişafına göstərilən yüksək qayğı kimi dəyərləndirərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından minnətdarlığını bildirir, muxtar respublika rəhbərinin pedaqoji kollektivlə görüşündə verdiyi tövsiyələrin müəllimlərin fəaliyyət proqramına çevrildiyini diqqətimizə çatdırır:

– Ulu öndər deyirdi ki, Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir. Məhz dövlətçiliyimizi, dövlətçilik tariximizi olduğu kimi öyrənmək, öyrətmək, təbliğ etmək, gələcək nəsillərə ötürmək biz müəllimlərin ana vəzifəsidir. Ona görə də bu vəzifəni yerinə yetirmək üçün muxtar respublikada təhsilin inkişafı illərdir ki, prioritet vəzifəyə çevrilib. Bu istiqamətdə başlıca vəzifə isə müasir standartlara cavab verən binaların tikintisi, onların güclü maddi-texniki baza və ixtisaslı, intellektual səviyyəli kadrlarla təminatıdır. Bu baxımdan muxtar respublikada pedaqoji fəaliyyətlə məşğul olanlar xoşbəxtdirlər. Ona görə ki, hər il qədim diyarımızda həyata keçirilən quruculuq tədbirlərinin böyük bir qismini məktəblərimiz üçün tikilən binalar təşkil edir. Bu qayğıdan onlara da pay düşdüyünü bildirən direktor deyir ki, son illərə qədər istismar müddəti başa çatmış, normal tədris prosesinə imkan verməyən məktəbdə çalışıblar. Ancaq muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər onlarda böyük inam yaradıb ki, bir gün Çərçiboğanda da yeni məktəbin sevinci yaşanacaq, o gün kəndin tarixinə yazılacaq. Bu inamla da qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməyə çalışıblar. Bunun ifadəsidir ki, ötən il məktəbin məzunlarından 15-i ali, 3-ü orta ixtisas məktəblərinin tələbəsi adını qazanıblar. Etimadı doğruldan abituriyentlərin 4-ü 500-dən yuxarı bal toplayıb. Direktorun sözlərinə görə, ali məktəbdə təhsil alan keçmiş məzunlarla əlaqə saxlayır, onların qazandıqları uğurlara sevinirlər. Təbii ki, əldə olunan uğurlarda məktəbin müəllimlərinin böyük əməyi var. Onların zəhmətinin daim yüksək qiymətləndirildiyini bildirən Elnarə Əliyeva onu da diqqətimizə çatdırır ki, neçə illərdir, pedaqoji fəaliyyətlə məşğul olan, müəllim peşəsinin məsuliyyətini dərindən dərk edən Nahidə İbrahimova “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi”, Səadət Süleymanova isə “Azərbaycan Respublikasının Əməkdar müəllimi” kimi fəxri adlara layiq görülüblər. Onlar belə yüksək dövlət qayğısını, ümumilikdə, məktəbin kollektivinə göstərilən diqqət kimi dəyərləndirirlər. Nahidə İbrahimova deyir ki, Çərçiboğan böyük yaşayış məntəqəsidir. Burada təsərrüfatın müxtəlif sahələri inkişaf etdirilir. Şagirdlərimizi də əməyə, zəhmətə məhəbbət ruhunda tərbiyə etməyə səy göstəririk. Onları vətənpərvər, dövlətimizə layiq gənclər kimi yetişdirməyə çalışırıq.

Maraqlı söhbət üçün müəllimlərə minnətdarlığımızı bildirir, 2021-2022-ci tədris ilində kollektivə uğurlar arzulayaraq məktəbdən çıxırıq. Yaxınlıqdakı yeni bina Çərçiboğan kənd Uşaq Musiqi Məktəbi üçün inşa olunub. Məktəblə yaxından tanışlığımız, müasir tədris şəraiti, müəllimlərlə söhbətlər bizdə binanın açılışında Ali Məclis Sədrinin 35 ildir, fəaliyyət göstərən məktəbin ənənələrini davam etdirən kollektiv qarşısında qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələcəyinə əminlik yaradır. Məktəbin solfecio müəllimi Sevinc Ramazanova deyir ki, muxtar respublikamızda yeniyetmə və gənclərin fiziki və intellektual inkişafının düzgün formalaşdırılması, onların istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlər, müxtəlif Dövlət proqramlarının reallaşdırılması gələcəyimizə böyük qayğının ifadəsidir. Son illərdə görülən işlər bunu bir daha sübut edir. Bizim istifadəmizə verilən yeni məktəb binası da həyata keçirilən tədbirlərin davamıdır. Müasir arxitekturası həm tikildiyi əraziyə, həm də Çərçiboğana gözəllik bəxş etmiş məktəbdə kəndin musiqi istedadı olan uşaqların təhsili ilə bağlı hər bir iş görülüb. Zəngin maddi-texniki baza, işıqlı sinif otaqları, kitabxana, konsert zalı, alət təmiri otaqları, digər yardımçı tikililər musiqi tədrisinin səviyyəsini yüksəltməyə imkan verib. Kollektivimiz də bu imkanlardan səmərəli istifadə etməyə çalışır. Xalqımız zəngin musiqi mədəniyyətinə malikdir. Bu, milli sərvəti uşaqlara da öyrətmək həmin mədəniyyəti qorumaq və gələcəyə ötürmək deməkdir. Ona görə də xalq mahnılarımız, rəqslərimiz bu gün

Musiqi məktəbi



Dünən



Bu gün

musiqi məktəbində təhsil alan şagirdlərə böyük həvəslə öyrədilir.

Söhbətə qoşulan məktəbin musiqi ədəbiyyatı müəllimi Aygül Həsənova sevincini ifadə edərək deyir ki, muxtar respublikanın bu bölgəsi həm də qədim yallıları ilə tanınır. Ulu öndər Heydər Əliyevin dediyi kimi: ***“Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır”.***

Musiqi məktəbində bu istiqamətdə görülən işlər barədə danışan Aygül Həsənova onların üzərinə böyük məsuliyyət düşdüyünü dilə gətirir:

– Çərçiboğanda bir nəsil digərini əvəz etdikcə yeni yallı kollektivləri yaranır. Kənddə hazırda həm yaşlılardan, həm də gənclərdən ibarət yallı ansamblları var. Biz də bu gözəl sənət incilərinin yaşadılmasına çalışırıq. Ona görə də məktəbdə yallı ansamblı yaratmışıq. Naxçıvanın brendi sayılan yallıları yaşatmaq üçün məktəbin hər bir müəllimi öz üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edir. Müsahibim deyir ki, 31 müəllimin çalışdığı, 140 şagirdin təhsil aldığı məktəbdə digər musiqi kollektivləri də yaradılıb. Kollektivlərə istedadlı şagirdlər cəlb olunub.

Məktəbdə onu da öyrənirik ki, müxtəlif əlamətdar və tarixi günlərdə həmin kollektivlərin konsertləri təşkil olunur, məktəbdaxili müsabiqələr keçirilir. Yeni bina isə həmin tədbirlərin əhatə dairəsini bir qədər də genişləndirəcək.

Sağlam bədəndə sağlam ruh olur. Buna görə də muxtar respublikamızın hər bir yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri həyata keçirilərkən səhiyyə müəssisələri üçün də yeni binaların inşa edilməsi diqqətdə saxlanılır. Çərçiboğan kəndində istifadəyə verilmiş 14 otaqdan ibarət yeni ikimərtəbəli ambulatoriya binası yaşayış məntəqəsi sakinlərinin böyük sevincinə səbəb olub.

Ambulatoriyada çalışan Familə Abdullayeva kollektiv adından onlara və kənd sakinlərinə göstərilən belə qayğını insan amilinə göstərilən böyük diqqət kimi dəyərləndirərək minnətdarlıq hisslərini bildirir:

– Müstəqilliyimizin və muxtariyyətimizin bəhrələrinin ümumi mənzərəsi ilə tanış olmaq üçün diyarımızın təkcə paytaxtına üz tutmaqla kifayətlənmək olmaz. Bu bəhrələri muxtar diyarımızın ən ucqar dağ və sərhəd kəndlərində də görmək olar. Görülən işlər isə hər bir Naxçıvan sakinini öz el-obasına, doğma yurd yerinə qırılmaz tellərlə bağlayır, onları qurub-yaratmağa, doğma muxtar respublikamız, nəticə etibarilə, ölkəmiz üçün maddi nemətlər istehsalına, ərzaq təhlükəsizliyinə töhfə verməyə sövq edir. Təbii ki, onların sağlamlığının da qorunması başlıca vəzifədir və gördüyümüz kimi bu məsələ artıq muxtar respublikada öz həllini tapıb. Həkim ambulatoriyasının kollektivi yeni binada fəaliyyət göstərdikləri ilk günlərdən Hippokrat andına sadiq qalmağa çalışır, tibbi xidmətin səviyyəsini yüksəltmək üçün yaradılmış imkanlardan istifadə edir. Bu da kənd sakinləri tərəfindən minnətdarlıqla qarşılanır. Kənd sakini Rauf Məmmədov deyir ki, insan ona göstərilən qayğını görəndə özünün qədir-qiymətini bilir. Bizə bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində yaradılmış belə şərait kənd sakinlərinin ürəyincədir.

Avtomobil yolu



Dünən



Bu gün

*Muxtar diyarımızda kompleks quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilmiş kənd və xidmət mərkəzlərinin də sayı getdikcə artmaqdadır. Bu ünvanlar inşa olunduqları ərazidə dövlət qurumlarının birgə işinə, ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışına, müxtəlif xidmət sahələrinin fəaliyyətinə geniş imkanlar açıb. Çərçiboğanda da inşa olunmuş həmin obyektlər qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə imkan verib.*

*Şərur rayonunun Çərçiboğan kəndindən soyuq bir qış günü isti təəssüratlarla ayrılırıq. Qarşıdakı nömrələrimizdə kənddə istifadəyə verilmiş yeni obyektlər barədə ətraflı bəhs etmək arzusu ilə...*

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

**Xalqın milli mədəniyyət tarixində mühüm yer tutan xalçaçılıq sənətinin tarixi qədim bir dövrü əhatə edir. Şərqin ən qədim və zəngin mədəni mərkəzlərindən olan Naxçıvanda digər sahələrlə yanaşı, dekorativ-tətbiqi sənət növlərindən biri olan xalçaçılıq da böyük tarixi inkişaf yolu keçmişdir. Naxçıvan xalçaları nəinki ölkəmizdə, bütün dünyada özünəməxsus xüsusiyyətləri ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: *"Xalçaçılıq tətbiqi sənətimizin elə bir sahəsidir ki, burada xalqımızın zəngin mənəvi aləmi, eləcə də həyat fəlsəfəsinə xas olan xüsusiyyətlər öz əksini tapmışdır".* Ali Məclis Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın əsas məqsədlərindən biri maddi və mədəni irsin qorunması ilə yanaşı, xalçaçılığın xammal təminatının yaradılması və bu sahədə yeni iş yerləri açılmasının dəstəklənməsidir.**

*Dövlət proqramı icra olunur*

# Naxçıvanda xalça sənəti yeni inkişaf mərhələsində

Proqramda Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin yaradılması ilə bağlı tapşırıq nəzərdə tutulmuş, ötən illərdən bu istiqamətdə işlərin icrasına başlanılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində 2021-ci ildə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının yaradılması başa çatdırılmışdır. Həmin il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə filialın açılışı olmuşdur. Həmçinin Ali Məclis Sədrinin 2021-ci il 24 noyabr tarixli müvafiq Sərəncamı əsasında "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması istiqamətində işlərə başlanmışdır.



Layihə çərçivəsində iplik və avadanlıqla təmin edilən 2 xalçaçı qadın tərəfindən milli ornamentlər əsasında xalçalar toxunmuşdur.

Xalçatoxuma sahələri yaratmaq, onları xammalla təmin etmək işin bir tərəfidirsə, digər mühüm bir istiqamət isə kadr hazırlığıdır. Xalça sənətinin inkişafına təsir göstərən pozisiyalı, milli-tikmə sənəti nümunələrindən ibarət 30-dan artıq əl işi sərgilənmişdir. Naxçıvan Müəllimlər İnstitutunda xalça muzeyi yaradılmış, "Azərbaycan xalçaçılıq sənəti" adlı dərs vəsaiti tədris proqramına daxil edilmiş, "Naxçıvan xalçaçılıq məktəbi" seçmə fənninin tədrisi davam etdirilmişdir. Dövlət proqramı çər-





Görülən işlər əhalinin məşğulluğunun təmin olunması sahəsində xalçaçılığın rolunu artırır və eyni zamanda bu sahədə yeni turizm məhsullarının ərsəyə gəlməsinə zəmin yaradır.

Qeyd olunanlarla yanaşı, sentyabrın 24-də Naxçıvan Biznes Mərkəzində Şərur Sənaye Məhəlləsində yaradılması nəzərdə tutulan istehsal sahələri ilə bağlı layihələrin, o cümlədən "Yun iplik istehsalı" layihəsinin təqdimatı olmuşdur. Təqdimatda sahibkarlara layihənin üstünlükləri və bu istiqamətdə tətbiq edilməsi nəzərdə tutulan dövlət güzəştləri barədə ətraflı məlumatlar verilmişdir.

Dövlət proqramının icrası istiqamətində toxunan xalçalar əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi üçün yeni imkanlar açır. Bu tədbirlərin digər mütərəqqi əhəmiyyəti isə ondan ibarətdir ki, toxunan hər yeni xalça ənənəvi üsul və çeşnilərin gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Proqramın icrası məqsədilə ötən il Naxçıvan Biznes Mərkəzinin Xalq Yaradıcılığı Emalatxanasında 9, Cəlilkənd buzxanasında 2, Dövlət Xalça Muzeyində 4, Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzinin "Toxuculuq" kabinəsində 46, Naxçıvan Müəllimlər İnstitutunun xalça emalatxanasında 5 xalça toxunmuşdur. Naxçıvan Biznes Mərkəzinin Xalq Yaradıcılığı Emalatxanasında və Cəlilkənd buzxanasında 23 xalçanın satışı həyata keçirilmişdir ki, bu da 2020-ci illə müqayisədə 9 xalça çoxdur. Həmçinin il ərzində "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial layihənin icrası da davam etdirilmişdir.

başlıca amillərdən biri də bu sahədə təhsil imkanlarının genişləndirilməsidir. İstər xalça sənəti üzrə peşə təhsilinin dəstəklənməsi, istərsə də ali təhsil müəssisələrində tələbələrin xalçaçılığa olan marağının artırılması istiqamətində görülən işlər bədii və texniki iş üsullarının öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir. Əllə xalçatoxuma sahəsində təhsilin dəstəklənməsi xalçaçılıq texnologiyası, semantikası və estetikası barədə ənənəvi təsəvvürlərin və adətlərin qorunub saxlanılmasına şərait yaradır. Ötən il Naxçıvan Şəhər Peşə Liseyində 16, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 29 müdavim xalçaçı kurslarında təhsilini başa vurmuş və sertifikatla təmin edilmişdir. Müvafiq tədris planına uyğun olaraq nümunəvi dərs cədvəlləri və 2 elektron dərs vəsaiti hazırlanaraq peşə məktəblərinə təqdim olunmuşdur. Eyni zamanda Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən xalçaçı kursunu 10 müdavim başa vurmuşdur. Noyabrın 30-da Naxçıvan Şəhər Peşə Liseyində xalçaçı kursunun müdavimləri tərəfindən hazırlanan 40-dək əl işindən ibarət sərgi təşkil edilmişdir.

Ümumtəhsil məktəblərinin şagirdlərinə xalçaçılıq sirlərinin öyrədilməsi diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq və Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq mərkəzlərində xalçaçılıq dərnəkləri yaradılmışdır.

Dövlət proqramının icrasına uyğun olaraq ali təhsil müəssisələrində də bu istiqamətdə işlər davam etdirilmişdir. Naxçıvan Dövlət Universitetində "Naxçıvan xalçaları və tikmələri" adlı dərs vəsaiti və "Naxçıvan xalçaçılıq məktəbi" fənn proqramının təqdimatı keçirilmişdir. Təqdimatda, həmçinin tələbələrin miniatür kom-

çivəsində təhsil müəssisələrində aparılan işlər şagird və tələbələrin, eləcə də xalçaçılıq peşəsinə marağı olan gənclərin yaradıcı fəallığına təkan verir.

Ölkəmizin xalça sənəti tarixində Naxçıvan xalçaçılıq məktəbi xüsusi yer tutur. Bu sahədə Naxçıvanda formalaşan tarixi ənənələrin araşdırılıb üzə çıxarılması yeni elmi nəşrlərin hazırlanması üçün əsas rolunu oynayır. Ötən il proqramın icrası Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində də diqqətdə saxlanılmışdır. Yanvar ayında Moldova Respublikasının Comrat şəhərində keçirilən Fənlərarası elmi araşdırmalar üzrə III Beynəlxalq Avropa konfransında "Naxçıvan memarlıq abidələri və xalça nümunələri üzərindəki ornamentlərin oxşarlığı" mövzusunda çıxış edilmiş və konfransın məruzələr toplusu çap olunmuşdur. Dövlət proqramının icrası məqsədilə aparılan elmi-tədqiqat işləri nəticəsində "Xalçanın əllə toxunması və texniki iş üsulları", "Naxçıvan xalçaları: dünəni və bu günü", "İpliklərin təbii boyalarla boyanması", "Naxçıvanda toxuculuq və xalçaçılığın ticarət əlaqələrinin genişlənməsinə təsiri" mövzularında məqalələr hazırlanaraq nəşrə təqdim olunmuşdur.

2021-ci ildə əllə toxunmuş xalçaların reyestr sisteminə daxil olunması üçün 23 yeni xalçanın pasportlaşdırılması ilə bağlı iş aparılmış, reyestrə, ümumilikdə, 33 xalça haqqında məlumat daxil edilmişdir.

*Muxtar respublikada xalçaçılıq sənətinin inkişafı sahəsində görülən işlər, yaradılan şərait xalq tətbiqi sənətinin bu növünün daha da zənginləşdirilərək gələcək nəsillərə çatdırılmasına imkan verir.*

**"Şərq qapısı"**

## Özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim edilib



"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yanvar ayı üzrə 30 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib. Özünüməşğulluq proqramının bu mərhələsində 14 ailənin hər birinə 2 baş iribuynuzlu, 10 ailənin hər birinə 20 baş xırdabuynuzlu, 3 ailəyə miniyerşumlayan aqreqat, 2 ailəyə inkubator və quş tükü təmizləyən aparat, 1 ailəyə isə bərbər avadanlıqları və ləvazimatları verilib. Özünüməşğulluğu təmin edilmiş ailələrin üzvlərindən 14 nəfərini sağlamlıq imkanları məhdud şəxslər, 3-nü cəzaçəkmə müəssisəsindən azad olunan şəxs, 2-ni nikahı pozulan şəxs, 1-ni müharibə veteranı, 1-ni müharibə iştirakçısı, 4-nü isə şəhid ailəsi üzvləri olan şəxslər təşkil edib.

Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Çıxışlarda ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər. Tədbirin davamında yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə Culfa rayonunun Saltaq kənd sakini Ələkbər Novruzov həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə ona arpa-buğda qıran aqreqat verilib.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *"Qış məktəbi"*nə start verilib



*Ağbulaq İstirahət Mərkəzində gənclərin "Qış məktəbi"nin ilk mərhələsinə start verilib. Layihə çərçivəsində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, Gənclər Fondunun icraçı direktoru, Milli Məclisin deputatı Cəbi Quliyev və YAP Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımovun iştirakı ilə gənclərlə görüş keçirilib.*

Diqqətə çatdırılıb ki, muxtar respublikada gənclərlə iş sahəsinə xüsusi önəm verilir və bu sahədə məqsədyönlü, ardıcıl tədbirlər həyata keçirilir. Yaradılan şərait, atılan addımlar imkan verir ki, gənclərimiz müxtəlif istiqamətlər üzrə yeni karyera və iş imkanları, o cümlədən təcrübə əldə edə bilsinlər. Bunun da bəhrəsi odur ki, istedadlı gənclərə dövlət dəstəyi göstərilir, onların əməyi qiymətləndirilir, gənc kadr kimi irəli çəkilirlər. Qeyd edilib ki, görüşün məqsədi də məhz gənclərin problemlərini, təkliflərini dinləməklə onlara kömək etməkdən, müxtəlif məsələlərin həlli və yeni metodların tətbiqi ilə bağlı müzakirələr aparmaqdan ibarətdir.

Səmimi söhbət zamanı iştirakçıların fikir və təklifləri dinlənilib, müxtəlif məsələlər ətrafında müzakirələr aparılıb.

Gün ərzində "Heydər Əliyev və Azərbaycançılıq" mövzusunda seminar, "Kənd turizminin təbliği" adlı müsabiqə keçirilib, axşam saatlarında isə film nümayiş olunub.

Qeyd edək ki, "Qış məktəbi"nin birinci mərhələsi bu gün yekunlaşacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Şahmatçımız liderlər cərgəsində



*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında növbəti tura yekun vurulub.*

Ötən turu qələbə ilə başa vuran naxçıvanlı şahmatçılardan beynəlxalq usta Toğrul Həsənzadə (2292) FIDE ustası Vüqar Manafovla (2299), beynəlxalq usta Pərviz Qasımov (2379) qrossmeyster Fərid Abbasovla (2527) qarşılaşıb. Bu görüşlərdə hər iki zəka sahibimiz qalib gəlib. Qrossmeyster Urfan Sevdimalıyev (2359) FIDE ustası Elvin Bayramovla (2280) oyunda məğlub olub. FIDE ustası Sadiq Məmmədov (2220) FIDE ustası Atilla Eynullayevə (2324), beynəlxalq usta Talıb Babayev (2256) isə FIDE ustası Fərid Mustafayevə uduzub.

Turnirin liderlərinin görüşündə qrossmeyster Vasif Durarbəyli (2615) qrossmeyster Nicat Məmmədovla (2604) "sülh" bağlayıb. FIDE ustası Şiroğlan Talıbovla (2307) FIDE ustası Elmar Atakişiyevin (2240), FIDE ustası Xəzər Babazadə (2427) ilə beynəlxalq usta İsmayıl Şahəliyevin (2380) də oyununda eyni nəticə qeydə alınıb. Qrossmeyster Misrətdin İsgəndərovla (2566) qrossmeyster Aydın Süleymanlının (2530) görüşündə qalib gələn tərəf Aydın olub. Qrossmeyster Eltac Səfərli (2597) beynəlxalq usta Murad İbrahimliyə (2418), FIDE ustası Zaur Bayramov (2357) isə beynəlxalq usta Məhəmməd Muradlıya (2528) məğlub olub. Beynəlxalq usta Əhməd Əhmədzadə (2467) ilə FIDE ustası Uğur İlyaslının (2310) görüşündə "ağ-qara" taxtanı Əhməd qələbə ilə tərk edib.

4 turdan sonra Pərviz Qasımov, Əhməd Əhmədzadə, Vasif Durarbəyli, Nicat Məmmədov, Murad İbrahimli və Aydın Süleymanlı 3 xalla turnir cədvəlində liderdirlər.

Qeyd edək ki, birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda ölkə çempionunu müəyyən edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 125